**Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası**

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**

# QEYRİ HÖKUMƏT TƏŞKİLATLARININ İDARƏ OLUNMASI

## Metodiki vəsait

**BAKI-2010**

Tərtib etdi: Sahib Məmmədov

Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə çap edilmişdir

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən həyata keçirilən ” **QHT-lərdə kargüzarlıq işinin təşkilinə dəstək**” layihəsi çərçivəsində hazırlanaraq çap olunmuşdur.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**
**Ünvan: Bakı ş. AZ 1025, Tağızadə küçəsi 3, mənzil 16**
Tel: (99 412) 418 68 08;
**E-mail:clrpl@ labourrights-az.org;**
**www.labourrights-az.org**

© VƏHML

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən hazırlanmış bu nəşr Qeyri Hökumət Təşkilatlarında təşkilati işlərin düzgün və müvafiq qanunvericiliyə uyğun şəkildə qurulması üçün metodiki vəsait kimi nəzərdə tutulmuşdur.
QHT-lər “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikası Qanunu”nun tələblərinə uyğun olaraq vaxtaşırı ümumi yığıncaqlar və ya konfranslar keçirməli, seçkili orqanları yenidən formalaşdırmalıdırlar. Bütün yığıncaqların yazılı protokolları tərtib edilməlidir. Protokolların tərtib edilməsi ilə bağlı qanunda detallı tələblər qoyulmasa da belə sənədlərin tərtib olunmasının praktikada uzun müddət tətbiq olunan formaları vardır. Bu vəsaitdə həmin formalardan nümunələr verilmişdir.
QHT-lər həmin nümunələrdən bəhrələnməklə təşkilati işlərin sənədləşməsində qanunvericiliyn tələblərini yerinə yetirə bilərlər.
Vəsait QHT-lər üçün nəzərdə tutulmuşdur.

**MÜNDƏRİCAT**

**1.GİRİŞ**

**2.ÜMUMİ YIĞINCAĞIN (KONFRANSIN, QURULTAYIN) PROTOKOLLARI**
**2.1.Ümümi yığıncağın (konfransın, qurultayın) protokolu**
**2.2.Say Komissiyasının protokolları**
**2.3.Mandat komissiyasının protokolları**

**3.QEYRI HÖKUMƏT TƏŞKİLATININ FİLAL VƏ NÜMAYƏNDƏLİKLƏRİNİN TƏSİS EDİLMƏSİNİN SƏNƏDLƏŞDİRİLMƏSİ**
**3.1. QHT-nin filialının təsis olunmasına dair protokoldan çıxarış**
**3.2.QHT-nin nümayəndəliyinin təsis olunmasına dair protokoldan çıxarış**
**3.3. QHT filial və nümayəndəliynin yaradılması barədə müvafiq məlumatın mətninin nümunəsi**

**4. NORMATİV HÜQUQİ AKTLARDAN ÇIXARIŞLAR**
4.1.**Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasinin Qanunundan çıxarış**

**5. ƏVƏZİ ÖDƏNİLMƏYƏN (KÖNÜLLÜ) FƏALİYYƏT**

## 1. GİRİŞ

“Qeyri-hökumət təşkilatlari (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu”nun 25.2. maddəsinə görə **“İctimai birliyin ali idarəetmə orqanı ildə bir dəfədən az olmayaraq çağırılan Ümumi yığıncaqdır”.** Eyni zamanda ictimai birliyin nizamnaməsində növbədənkənar yığıncaqların keçirilməsi qaydaları və prosedurları nəzərdə tutulur.
Qanunun tələbinə görə ümumi yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

- ictimai birliyin nizamnaməsinin qəbulu və ona dəyişikliklərin edilməsi;
- ictimai birliyin əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;
- ictimai birliyin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
- illik hesabatın təsdiq edilməsi;
- başqa təşkilatlarda iştirak;
- ictimai birliyin yenidən təşkili və ləğv edilməsi.

Qanunun 25.7. maddəsinə görə “Ümumi yığıncaqda yazılı protokol aparılmalıdır. Protokol yığıncağın sədri və katibi tərəfindən imzalanır. Yığıncağın protokolu lazım gəldikdə bütün üzvlərə paylanmalıdır”

Qanunda yığıncaqlarda səsvermənin gizli və ya açıq keçirilməsi ilə bağlı tələblər yoxdur. Bu baxımdan səsvermənin keçirilmə qaydasını müəyyən etmək yığıncağın öz səlahiyyətinə aiddir.
Bununla belə gizli səsvermə keçirilən yığıncaqla açıq səsvermə keçirilən yığıncağın protokollarının aparılmasında fərqlər mövcuddur. Belə ki, gizli səsvermə keçirilərkən səslərin sayılması üçün xüsusi say komisssiyası yaradılmalıdır. Mövcud praktikaya görə say komissiyası da iki protokol tərtib etməlidir. Bu protokollardan biri 1 saylı protokol adlanır. Bu protokol say komissiyasının iş qaydasının müəyyən olunması, komissiyanın sədrinin və katibinin seçilməsi və s. təşkilati və texniki işlərin yerinə yeririlməsi ilə bağlı keçirilən iclasın nəticələrinə uyğun olaraq tərtib edilir.
Say komissiyasının 2 saylı protokolu isə səsvermənin nəticələri ilə bağlı komissiyanın keçirdiyi iclasın nəticələrini və qəbul olunan qərarları özündə əks etdirir.
Eyni zamanda yığıncaqda (konfransda, qurultayda) iştirak edənlərin səlahiyyətli olmalarının müəyyən olunması məqsədi ilə mandat komissiyası da formalaşdırılır. Bu xüsusən üzvlərinin, yerli nümayəndəlik və filiallarının sayı çox olan QHT-lər üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, azsaylı üzvləri olan təşkilatlar üçün ümumi yığıncağın keçirilməsi ilə bağlı müvafiq səlahiyyətli orqanın qərarı kifayət etdiyi halda, üzvlərinin, filial və nümayəndəliklərinin sayı çox olan, həmçinin hüquqi şəxslərin üzv olduqları QHT birliklərində prosedurlar bir qədər mürrəkəb olur. Bu baxımdan mandat komissiyası yığıncaq (konfrans, qurultay) iştirakçılarının yerlərdə seçilməsi prosesini araşdırmalı, məhz bundan sonra iştirakçıların səlahiyyətli olmaları ilə bağlı protokol hazırlayaraq onu yığıncaq (konfrans, qurultay) iştirakçılarının təstiqinə təqdim etməlidir.

## 2.ÜMUMİ YIĞINCAĞIN (KONFRANSIN, QURULTAYIN) PROTOKOLLARI

### 2.1. Ümümi yığıncağın (konfransın, qurultayın) protokolu

**Aşağıda təqdim edilən protokollar nümunədir. Protokollar başqa şəkildə də tərtib oluna bilər. Nəzərə almaq lazımdır ki, əgər keçirilən yığıncaqda (konfrans, qurultay ) bütün səsvermələr açıq keçirilirsə, onda nümunədəki gizli səsvermə üzrə komissiyanın yaradılması, onun qərarları və s. kimi müddəalar çıxarılmalıdır.**

**.................................İctimai Birliynin ümumi yığıncağının**

**PROTOKOLU[1]**

**Bakı şəhəri.** **“___” “__________”2010**

**İctimai Birliyin üzvlərini sayı 107 nəfər**
**Yığıncaqda iştirak edən üzvlərin sayı 86 nəfər**

Sədarət[2] (və ya sədr)

1. ................................
2. ................................
3. .................................

Katiblik (və ya katib)

1..................................
2................................
3................................

**İşçi orqanların formalaşdırılması**

Sədarət açıq səsvermənin nəticələrini müəyyən etmək üçün say komissiyasının yaradılması məsələsini həll edir. Tərkibi 3-5 nəfərdən ibarət say komissiyası yaradılır.

Mandat komissiyasının tərkibinin formalaşdırılması

Sədrlik edən mandat komissiyasının say tərkibinə dair təklifləri səsə qoyur. Daha sonra komissiyanın tərkibinə namizədlər irəli sürülür. Namizədlər açıq səsvermə yolu ilə (yığıncağın qərarı ilə birgə və ya ayrı-ayrılıqda) müəyyən olunur. Bundan sonra mandat komissiyası fəaliyyətə başlayır.

Gizli səsvermə üzrə say komissiyasının formalaşdırılması[3]

Sədrlik edən gizli səsvermənin keçirilməsi üçün say komissiyasının tərkibi və namizədlər barədə təklifləri səsə qoyur və açıq səsvermə yolu ilə komissiya formalaşır və fəaliyyətə başlayır.

---

[1] Protokoldan əlavə yığıncağın (konfransın, qurultayın stenoqramması, audio və videoyazılışları aparıla bilər. Bununla belə protokol əsas sənəd hesab olunur)
[2] Yığıncağı idarə edəcək orqanların say tərkibini iştirakçılar sadə səs çoxluğu ilə müəyyən edir. Sədarət , katiblik (zəruri halda redaksiya heyəti və s. orqanlar) bir nəfərdən və ya bir neçə nəfərdən ibarət ola bilər.
[3] Əgər yığıncaq seçkili orqanların formalaşdırılması üçün səsvermənin gizli keçirilməsinə dair qərar qəbul etmişdirsə və ya bu QHT-nin nizamnamə və ya digər rəhbər sənədlərində nəzərdə tutulmuşdursa belə komissiya yaradılır.

Qeyd: Zəruri hallarda yığıncağın (konfransın, qurultayın) işinin təmin olunması üçün digər oqranlar (redaksiya heyəti və s.) yaradıla bilər.

**Yığıncağın (konfransın, qurultayın) gündəliyi[4]**

1. İdarə Heyətinin (icra orqanının və s.) Hesabatı
2. Nəzarət-Təftiş komissiyasının hesabatı
3. Mandat və Gizli səsvermə komissiyalarının 1 saylı protokollarının təstiq olunması[5]
4. Hesabatların müzakirəsi[6]
5. Hesabatlara dair yığıncağın qərarı[7]
6. Təşkilati məsələlər[8]
   -İdarə heyətinin seçilməsi
   -Nəzarət təftiş komissiyasının seçilməsi
   -və s.

7. Gizli səsvermənin keçirilməsi və say komissiyasının seçkilərin nəticələrinə dair protokolunun təstiq olunması.
8. Cari məsələlər

1. Gündəlikdə müəyyən olunan məsələ ilə bağlı İdarə Heyətinin (icra orqanının və s.) sədri (prezidenti, icraçı direktor və s.) hesabatla çıxış etdilir...........................................................................................................................................
.........................................................................................................................................................
..............................................................(Bu hissədə hesabatın qısa məzmunu yazılır. Əgər hesabat yazılıdırsa protokola əlavə edilir).
2. Gündəlikdə müəyyən olunan ikinci məsələ ilə bağlı Nəzarət Təftiş Komissiyasının sədri hesabat verdi.....................................................................................................................................
.........................................................................................................................................................
...........................................(Bu hissədə hesabatın qısa məzmunu yazılır. Əgər hesabat yazılıdırsa protokola əlavə edilir).
3. Mandat komissiyasının məlumatı dinlənildi və ilk iclasının(komissiyanın sədrinin və katibinin seçilməsi ilə bağlı) və mandatların təstiq olunması ilə bağlı iclasının protokolları təstiq edildi. Gizli səsvermə üzrə say komissiyalarının ilk iclaslarının protokolu təstiq edilir.

**Qərara alındı:**

**1.Mandat Komissiyasının 1 saylı və 2 saylı protokolu təstiq edilsin.**
**2. Gizli səsvermə üzrə Say Komissiyasının 1 saylı protokolu təstiq edilsin.**

4. Hesabatların müzakirəsi ilə bağlı aşağıdakı şəxslər çıxış etmişdir.

---

[4] Gündəlik QHT-nin hesabat seçki yığıncağı (konfransı, qurultayı) üçün nəzərdə tutulur.
[5] Bu məsələ gündəliyə daxil edilmədən adi prosedur qaydada da həll edilə bilər. Sədarət komissiyaların hazırlığını nəzərə alaraq bir qayda olaraq seçkili orqanların hesabatları dinlənildikdən sonra həll edilir.
[6] Hesabatlar birgə və ya ayrı-ayrılıqda müzakirə oluna və qiymətləndirilə bilər.
[7] Praktikada hesabatların qiymətləndirilməsi (kafi və ya qeyri-kafi) və ya nəzərə alınması halları var. Hər bir təşkilatın ali orqanı bu halda nizamnamədə nəzərdə tutulan qaydaya müafiq qərar qəbul etməlidir.
[8] Hər bir QHT təşkilati məsələləri nizamnamədə göstərilən qaydada formalaşdırır.

................................................(çıxış edənin adı, soyadı və çıxışının qısa məzmunu )
................................................(çıxış edənin adı, soyadı və çıxışının qısa məzmunu )
................................................(çıxış edənin adı, soyadı və çıxışının qısa məzmunu )
................................................(çıxış edənin adı, soyadı və çıxışının qısa məzmunu )
................................................(çıxış edənin adı, soyadı və çıxışının qısa məzmunu )

(əgər məruzəçilərə suallar verilmişdirsə, suallar və verilən cavablara dair protokolda qeydlər aparıla bilər)

5. Hesabatlar dinlənildikdən və müzakirə olunduqdan sonra

**Qərara alındı:**

1. **İdarə Heyətinin hesabatı nəzərə alınsın;**
2. **Nəzarət-Təftiş Komissiyasının hesabatı nəzərə alınsın.**

6. Təşkilati məsələlərə növbəti dövr üçün seçkili orqanların formalaşdırılması daxil edilmişdir.
7. Bunula bağlı əvvəlcə sədrlik edən İdarə heyətinin tərkibinə dair təklifləri səsə qoydu. İdarə heyətinin 5 nəfərdən ibarət olması qərara alındı. Daha sonra namizədlər irəli sürüldü. Aşağıda adları gedən 10 nəfərin namizədliyi irəli sürüldü:

1............................................................
2..........................................................
3..........................................................
4..........................................................
5..........................................................
6.........................................................
7..................................................................
8................................................................
9................................................................
10..............................................................

Namizədliyi irəli sürülən şəxslərdən ....................və ...........................namizədliklərini geri götürdülər.

Adları aşağıda gedən 8 nəfərin adlarının gizli səsvermə bülletenin salınmasına dair qarar qəbul edildi:

1. Aşağıda adları gedən şəxslərin adları gizli səsvermə bülletenin daxil edilsin:
   1....................................................
   2....................................................
   3....................................................
   4....................................................
   5.....................................................
   6.....................................................
   7....................................................
   8.....................................................

Nəzarət-Təftiş komissiyasının tərkibinin 3 nəfərdən olmasına dair qərar qəbul edildi.
Aşağıda adları çəkilən şəxslərin namizədlikləri irəli sürüldü:
1.......................................
2........................................
3........................................
4........................................
5........................................

Namizədliyi irəli sürülən şəxslərin adlarının gizli səsvermə bülletenin daxil edilməsi barədə qərar qəbul edildi:

1. Aşağıda adları çəkilən şəxslərin adları Nəzarət-Təftiş Komissiyasının üzvülüyinə namizədlər qismində gizli səsvermə bülletenin daxil edilsin:
   1...........................................

2.........................................
3.........................................
4.........................................
5..........................................

7.Səsvermə keçirildikdən sonra say komissiyası səsvermənin nəticələrinə dair keçirdikləri iclasın 2 saylı protokolunu ümumi yığıncaq iştirakçılarına təqdim etdi.

Protokol səsə qoyuldu və qərara alındı:

**1) Say Komissiyasının 2 saylı protokolu təstiq edilsin**

8. Cari məsələlərdə ümumi yığıncağın (konfrasın, qurultayın) səlahiyyətinə aid olan müxtəlif məsələlər müzakirə olundu.

Ümumi yığıncaq başa çatdı.

Ümumi yığıncağın sədri (sədrləri): ___________________________

Ümumi yığıncağın katibi (katibləri): ____________________________

**Say Komissiyasının protokolları**

**_______________________________________________________________ İctimai Birliynin**
**(QHT-nin adı)**

**Ümumi yığıncağının say komissiyasının iclasının**

**PROTOKOLU № 1**

“___”_________________2010

İştirak edirdi: Say komissiyasının üzvləri
1.______________________________________
2.______________________________________
3.______________________________________
4.______________________________________
5.______________________________________

Gündəlik:

**1. Say komissiyasının sədrinin və katibinin seçilməsi**

1. Dinlənildi: Say Komissiyasının üzvü __________________________ təklif etdi ki,
(A.A.S.)
Say komissiyasının sədri __________________________ seçilsin.
(A.A.S.)

Başqa namizəd irəli sürülmədi.
Qərara alındı:

1.__________________________ say komissiyasının sədri seçilsin.
(A.A.S.)

Dinlənildi: Say Komissiyasının üzvü __________________________ təklif etdi ki,
(A.A.S.)
Say komissiyasının katibi __________________________ seçilsin.
(A.A.S.)

Başqa namizəd irəli sürülmədi.
Qərara alındı:

2. .__________________________ say komissiyasının katibi seçilsin.
(A.A.S.)

İclasın sədri: ____________________

Katib: ____________________

**__________________________________________________________ İctimai Birliyinin**
**(QHT-nin adı)**

**Ümumi yığıncağının say komissiyasının iclasının**

**PROTOKOLU № 2**

"___"________________2010

İştirak edirdi: Say komissiyasının üzvləri
1.__________________________________
2.__________________________________
3.__________________________________
4.__________________________________
5.__________________________________

Gündəlik:

**1. Səsvermənin nəticələrinə dair**

İclasda təşkilatı məsələlərlə bağlı səs vermənin nəticələri müzakirə olundu.
Səs vermədə iştirak edib - 86 nəfər,
etibarsız bülletenlərin sayı- 4 ədəd
etibarlı bülletenlərin sayı – 82 ədəd

Namizədlər aşağıdakı səsləri toplamışlar.

1. İdarə Heyətinin üzvlüyünə namizədlər

| № | Namizədin A.A.S. | Leyhinə | Əleyhinə |
|---|---|---|---|
| 1 | -------------------------------------------- | ---------------- | ------------ |
| 2 | -------------------------------------------- | --------------- | ------------ |
| 3 | ------------------------------------------- | --------------- | ------------ |
| 4 | -------------------------------------------- | ---------------- | ------------ |
| 5 | -------------------------------------------- | --------------- | ------------ |
| 6 | ------------------------------------------- | --------------- | ------------ |
| 7 | -------------------------------------------- | ---------------- | ------------ |
| 8 | -------------------------------------------- | --------------- | ------------ |

2. Nəzarət Təftiş Komissiyasının üzvlüyünə namizədlər

| № | Namizədin A.A.S. | Leyhinə | Əleyhinə |
|---|---|---|---|
| 1 | -------------------------------------------- | ---------------- | ------------ |
| 2 | -------------------------------------------- | --------------- | ------------ |
| 3 | ------------------------------------------- | --------------- | ------------ |
| 4 | -------------------------------------------- | ---------------- | ------------ |
| 5 | -------------------------------------------- | --------------- | ------------ |

Beləliklə
1. Aşağıda adları çəkilən şəxslər zəruri səsləri toplayaraq İdarə heyətinin üzvləri seçilmişdir:

1)________________________________
2)________________________________
3)________________________________
4)________________________________
5)________________________________

2. Aşağıda adları çəkilən şəxslər zəruri səsləri toplayaraq NTK üzvləri seçilmişdir.

1)_______________________
2)_______________________
3)_______________________

Say Komissiyasının sədri: ____________________________

Say Komissiyasının katibi: ____________________________

**Mandat komissiyasının protokolları**

**__________________________________________________________ İctimai Birliynin**
**(QHT-nin adı)**

**Ümumi yığıncağının mandat komissiyasının iclasının**

**PROTOKOLU № 1**

"___"________________2010

İştirak edirdi: Mandat komissiyasının üzvləri
1.__________________________________
2.__________________________________
3.__________________________________
4.__________________________________
5.__________________________________

Gündəlik:

**1. Mandat komissiyasının sədrinin və katibinin seçilməsi**

1. Dinlənildi: Mandat Komissiyasının üzvü __________________________ təklif etdi ki,
(A.A.S.)
Mandat komissiyasının sədri __________________________ seçilsin.
(A.A.S.)

Başqa namizəd irəli sürülmədi.
Qərara alındı:

1.__________________________ mandat komissiyasının sədri seçilsin.
(A.A.S.)

Dinlənildi: Mandat Komissiyasının üzvü __________________________ təklif etdi ki,
(A.A.S.)
Mandat komissiyasının katibi __________________________ seçilsin.
(A.A.S.)

Başqa namizəd irəli sürülmədi.
Qərara alındı:

2. .__________________________ Mandat komissiyasının katibi seçilsin.
(A.A.S.)

İclasın sədri: ___________________

Katib: ____________________

________________________________________________________ **İctimai Birliynin**

**(QHT-nin adı)**

**Ümumi yığıncağının Mandat komissyasının iclasının**

**PROTOKOLU № 2**

"___"_____________________2010

İştirak edirdi: Mandat komissiyasının üzvləri
1.__________________________________
2.__________________________________
3.__________________________________
4.__________________________________
5.__________________________________

Gündəlik:

**1. Mandatların təsdiq olunmasına dair**

1. Mandat komissiyasının sədri ________________________məlumat verərək bildirdi ki, İctimai
(A.A.S.)
Birliyin 107 nəfər üzvündən 86 nəfər ümumi yığıncaqda iştirak edir. Komissiya İctimai Birliyin üzvlərə dair reyestrini araşdıraraq müəyyən etmişdir ki, iştirakçıların hər biri doğurdan da birliyn üzvləridir. Bu baxımdan onlara verilən mandatlar etibarlıdır.

**Müzakirələrdən sonra qərara alındı:**

**1) _______________________________________________________ İctimai Birliynin**

**(QHT-nin adı)**

**Ümumi yığıncağının iştirakçılarının mandatları etibarlı hesab olunsun.**

Mandat komissiyasının sədri: ____________________________

Mandat komissiyasının katibi: ____________________________

# 3.QEYRİ HÖKUMƏT TƏŞKİLATININ FİLAL VƏ NÜMAYƏNDƏLİKLƏRİNİN TƏSİS EDİLMƏSİNİN SƏNƏDLƏŞDİRİLMƏSİ

**3.1. QHT-nin filialının təsis olunmasına dair protokoldan çıxarış**

**__________________________________________ İdarə Heyətinin (İcraiyyə**
**(QHT-nin adı)**
**Komitəsinin və s.) yığıncağının "__"_________2010-cu il tarixli yığıncağının protokolundan**

## ÇIXARIŞ

Bakı şəhəri "____"._____. 2010-cu il

İştirak etdilər: İdarə heyətinin üzvləri: 5 nəfər
Dəvət edilmişlər: yoxdur

Sədr: ______________
Katib: _____________

**Gündəlik**

1.________________________________________________ İctimai Birliynin
(QHT-nin adı)

________________________________üzrə filialının təsis olunması
(İnzibati ərazi vahidinin adı)

**1. Dinlənildi:** ._________________________________________İctimai Birliynin
(QHT-nin adı)
İdarə heyətinin sədri__________________________məlumat verərək bildirdi ki, İctimai
(A.A.S.)
Birliyin fəaliyyətinin genişlənməsi ilə əlaqədar regionlarda onun filiallarının yaradılması zərurəti yaranmışdır. Təşkilat filialları vasitəsi ilə bir sıra layihələr reallaşdıracaqdır. Həmçinin Qeyri Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) Haqqında Qanunun 7.1. və 7.2. maddələrinə uğun olaraq İctimai Birliyin aidiyyatı region üzrə fəaliyyətinin həyata keçirilməsi də filiala həvalə olunacaqdır.

Müzakirələrdən sonra qərara alındı:
1. ___________________________________________İctimai Birliynin
(QHT-nin adı)
________________________________üzrə filialı təsis edilsin;

2. ___________________________________ İctimai birliyn
(A,A.S.)

____________________________________üzrə filialının
(İnzibati ərazi vahidinin adı)
rəhbəri təyin edilsin;

3.İctimai Birliyin Qeyri Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) Haqqında Qanunun 7.1. maddəsinin tələbinə uyğun olaraq 10 gün müddətində ____________________________________üzrə
(İnzibati ərazi vahidinin adı)
filialının təsis olunması barəsində Ədliyyə
Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsinə yazılı məlumat təqdim edilsin.

**Sədr: ____________________** **(Möhür)**
**Katib:____________________**

**3.2.QHT-nin nümayəndəliyinin təsis olunmasına dair protokoldan çıxarış**

**_________________________________________ İdarə Heyətinin (İcraiyyə**
(QHT-nin adı)
**Komitəsinin və s.) yığıncağının "__"_________2010-cu il tarixli yığıncağının protokolundan**

## ÇIXARIŞ

Bakı şəhəri "____"._____. 2010-cu il

İştirak etdilər: İdarə heyətinin üzvləri: 5 nəfər
Dəvət edilmişlər: yoxdur

Sədr: ______________
Katib: _____________

**Gündəlik**

1.__________________________________________ ___________ İctimai Birliynin
(QHT-nin adı)

____________________________________üzrə nümayəndəliyinin təsis olunması
(İnzibati ərazi vahidinin adı)

**1. Dinlənildi:** .__________________________________________İctimai Birliynin
(QHT-nin adı)
İdarə heyətinin sədri_____________________________məlumat verərək bildirdi ki, İctimai
(A.A.S.)
Birliyin maraqlarının təmsil və müdafiə edilməsi məqsədi ilə _________________________
(inzibati vahidin və ya regionun
_______________ nümayəndəliyin yaradılması zərurəti yaranmışdır.
adı)

İdarə heyətinin sədri______________________________Qeyri Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) Haqqında Qanunun 7.1. və 7.3. maddələrinə uyğun olaraq İctimai Birliyin
____________________________ nümayəndəliyin yaradılması haqqında qərar qəbul etməyi
(inzibati vahidin və ya regionun adı)
təklif etdi.

Müzakirələrdən sonra qərara alındı:

1. ________________________________________________İctimai Birliynin
(QHT-nin adı)
_____________________________________üzrə nümayəndəliyi təsis edilsin;

2. _______________________________________ İctimai
(A,A.S.)

birliynin_______________________________ nümayəndəliynin rəhbəri təyin edilsin;
(inzibati vahidin və ya regionun adı)

3.İctimai Birliyin Qeyri Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) Haqqında Qanunun 7.1. maddəsinin tələbinə uyğun olaraq 10 gün müddətində _____________________________________üzrə nümayəndəliyinin təsis olunması barəsində
(İnzibati ərazi vahidinin adı)
Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsinə yazılı məlumat təqdim edilsin.

**Sədr: ___________________** **(Möhür)**
**Katib:___________________**

**3.3. QHT filial və nümayəndəliynin yaradılması barədə müvafiq məlumatın mətninin nümunəsi**

**Ədliyyə Nazirliyinin Qeydiyyat və**
**Notariat Baş İdarəsinə**

________________________________________________İctimai Birliynin
(QHT-nin adı)

_______________________________________nümayəndəliyi (filialı) təsis edilmişdir.
(inzibati vahidin və ya regionun adı)

Qeyri Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) Haqqında Qanunun 7-ci maddəsinə uyğun olaraq nümayəndəliyin (filialın) təsis edilməsinə dair məlumatı təqdim edirik.

*Qoşma:* Nümayəndəliyin (filialın) təsis edilməsinə dair İdarə Heyətinin yığıncağının protokolundan çıxarış.

İmza: ___________________________ (möhür)

## 4. NORMATİV HÜQUQİ AKTLARDAN ÇIXARIŞLAR

### 4.1. Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**Ç I X A R I Ş**

M a d d ə 7 . **Qeyri-hökumət təşkilatının filial və nümayəndəlikləri**

7.1. Dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər. Qeyri-hökumət təşkilatının filial və nümayəndəliklərinin dövlət qeydiyyatına alınması tələb edilmir. Təşkilat on gün müddətində müvafiq icra hakimiyyəti orqanına filial və (və ya) nümayəndəliyinin yaradılması haqqında məlumat verməlidir.

7.2. Qeyri-hökumət təşkilatının filialı həmin təşkilatın olduğu yerdən kənarda təşkil edilə və onun fəaliyyətini və ya fəaliyyətinin bir hissəsini həyata keçirə bilər.

7.3. Qeyri-hökumət təşkilatının nümayəndəliyi həmin təşkilatın olduğu yerdən kənarda təşkil edilir, onun maraqlarını təmsil edir və həmin maraqların müdafiəsini həyata keçirir.

7.4. Qeyri-hökumət təşkilatının filialı və nümayəndəliyi hüquqi şəxs deyil, onları yaratmış təşkilatın əmlakından pay alır və onun adından, təsdiq etdiyi Əsasnaməyə əsasən, fəaliyyət göstərir. Filial və nümayəndəliklərin fəaliyyətinə görə onları yaradan qeyri-hökumət təşkilatı məsuliyyət daşıyır.

7.5. Filial və nümayəndəliyin rəhbərləri qeyri-hökumət təşkilatı tərəfindən təyin edilir və qeyri-hökumət təşkilatı tərəfindən verilən səlahiyyət dairəsində fəaliyyət göstərir. Təsisçilərinin əcnəbilər və ya xarici hüquqi şəxslər olduğu qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdırlar.

M a d d ə 2 5 . **İctimai birliyin idarə olunmasının əsasları**

25.1. İctimai birliyin strukturu, tərkibi, idarəetmə orqanlarının səlahiyyəti, formalaşdırılma qaydası və onların səlahiyyət müddəti, qərar qəbul etmə və ictimai birliyin adından çıxış etmə qaydaları bu Qanun və digər qanunlara müvafiq olaraq ictimai birliyin nizamnaməsi ilə müəyyən edilir.

25.2. İctimai birliyin ali idarəetmə orqanı ildə bir dəfədən az olmayaraq çağırılan Ümumi yığıncaqdır.

25.3. Ümumi yığıncaq ictimai birliyin icra orqanının, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

25.4. Ümumi yığıncağın əsas funksiyası onun marağı naminə yarandığı məqsədlərə riayət etməkdir.

25.5. Ümumi yığıncağın səlahiyyətinə aşağıdakı məsələlərin həlli aiddir:

25.5.1. ictimai birliyin nizamnaməsinin qəbulu və ona dəyişikliklərin edilməsi;

25.5.2. ictimai birliyin əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;

25.5.3. ictimai birliyin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;

25.5.4. illik hesabatın təsdiq edilməsi;

25.5.5. başqa təşkilatlarda iştirak;

25.5.6. ictimai birliyin yenidən təşkili və ləğv edilməsi.

25.6. İctimai birliyin təsisçilərinə və üzvlərinə ümumi yığıncağın yeri və vaxtı haqqında ən azı 2 həftə əvvəl məlumat verilməlidir. Ümumi yığıncaq yalnız birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə nizamnaməyə dəyişikliklər edə bilər. Ümumi yığıncağın qərarı yığıncaqda iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səsə malikdir.

25.7. Ümumi yığıncaqda yazılı protokol aparılmalıdır. Protokol yığıncağın sədri və katibi tərəfindən imzalanır. Yığıncağın protokolu lazım gəldikdə bütün üzvlərə paylanmalıdır.

## 5. ƏVƏZI ÖDƏNILMƏYƏN (KÖNÜLLÜ) FƏALIYYƏT

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə görə *işçi-işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxsdir.*
Bununla belə elə iş yerləri vardır ki, orada çalışanların heç də hamısı *haqqı ödənilməklə* çalışmır. Əksinə bu şəxslər təmənnasız çalışır və sərf etdikləri əməyin müqabilində heç bir əmək haqqı almırlar. Belə işçi könüllü (volunteer) adlanır.
**Könüllü - təmənnasız əmək sərf etmək yolu ilə xeyriyyəçilik fəaliyyəti həyata keçirən fiziki şəxsdir.**
Könüllülərin fəaliyyət göstərdiyi sferalar biznes və dövlət sektorunu deyil, adətən üçüncü sektoru əhatə edir. Bu gün dünyada ictimai və cəmiyyət maraqları naminə təmənnasız əmək sərf edən insanların sayı on milyonlarladır. 1996-cı ildə ABŞ-da gəlirsiz sektorda fəaliyyət göstərən 6,3 milyon nəfər olmuşdur. Onların əməyi qiymətləndirildikdə bu rəqəm yüz milyardlarla ABŞ dolları edir.
Azərbaycanda könüllülük fəaliyyəti ölkədə QHT-lərin təşəkkkül tapma mərhələsi ilə üst-üstə düşür. Bu baxımdan könüllülük fəaliyyəti ölkəmizə o qədər də geniş inkişaf etməmişdir. Bununla belə əhali tərəfindən formalaşan müxtəlif qeyri formal birliklərdə könüllülük fəaliyyəti olmuşdur. Müxtəlif iməcliklər, məclislərin hazırlanması və təşkili zamanı əhali arasında bir-birinə təmənnasız yardımların, o cümlədən əmək sərf etməklə yardımların göstərilməsi ənənəsinin tarixi çox uzaqlara gedir.
Lakin ölkədə QHT-lərin yaranmasından sonra bu fəaliyyət artıq sistemli xarakter almağa başladı. Lakin qeyd olunduğu kimi ölkədə könüllü fəaliyyətlə məşğul olan əhalinin sayı qərb ölkələri ilə müqaisədə olduqca azdır.
Yaxın dövrlərə qədər Ölkənin normativ aktlarında könüllülük haqqında heç bir müddəa yox idi və bu fəaliyyəti tənzimləyən hər hansı qanun da mövcud deyildir.
Lakin ölkədə fəaliyyət göstərən bir sıra vətəndaş cəmiyyəti qurumlarının səyləri nəticəsində 2009-cu ilin iyun ayında Milli Məclis tərəfindən qəbul olunmuş və Ölkə Prezidenti tərəfindən imzalanmış "**Könüllü fəaliyyət haqqında**" Azərbaycan Respublikası Qanunu bu fəaliyyətin hüquqi əsaslarını yaratdı.
Qanun hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir.
Qanunun 2-ci maddəsinə görə, "Könüllü fəaliyyət — Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyətdir."
Qanun müəyyən edir ki, "Əvəzi ödənilməyən fəaliyyət-əmək haqqı ödənilməyən fəaliyyətdir".
Könüllü fəaliyyətin təşkilatçılarının dairəsi qanunvericiliklə aşağıdakı şəkildə müəyyən olunmuşdur:
"Könüllü fəaliyyətin təşkilatçısı — könüllü fəaliyyətin təşkilini və həyata keçirilməsini təmin edən dövlət orqanları, dövlət büdcəsindən maliyyələşən təşkilatlar, yerli özünüidarə orqanları və qeyri-hökumət təşkilatlarıdır".
Göründüyü kimi biznes maraqları güdən təşkilatlar könüllü fəaliyyətin təşkilatçısı qismində çıxış edə bilməzlər.
Qanun Könüllü fəaliyyətin əsas istiqamətlərini də müəyyən etmişdir. Qanunun 3-cü maddəsinə görə könüllü fəaliyyətin əsas istiqamətləri aşağıdakılardır:

- əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi;
- insanpərvərliyin və dözümlülüyün təbliği;
- istehlakçıların hüquqlarının qorunması;
- hüquqi və mədəni maarifləndirmə;
- uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı;
- idmanın inkişafı;
- xəstəliklər və epidemiyalar barədə məlumatlandırma;
- sağlam həyat tərzinin təbliği;
- ətraf mühitin mühafizəsi;
- tarix və mədəniyyət abidələrinin, mədəni və mənəvi irsin qorunması;
- silahlı münaqişələr, təbii fəlakətlər, sənaye qəzaları, yanğınlar, epidemiyalar, epizootiyalar və digər fövqəladə halların nəticələrinin aradan qaldırılmasına, o cümlədən fövqəladə hallar nəticəsində zərər çəkmiş şəxslərə yardım göstərilməsi;
- cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığa düçar olan, məişət zorakılığına məruz qalan şəxslərə kömək edilməsi;
- Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri.

Qanun həmçinin könüllü fəaliyyətin iştirakçılarının dairəsini, təşkilatçıların və könüllüərin hüquq və vəzifələrini müəyyən edir.
Könüllü fəaliyyət haqqında Qanun qəbul edilənədək könüllü ilə könüllünü əmək fəaliyyətinə cəlb edən təşkilatçı arasında münasibətlərin hüquqi baxımdan qurulması ciddi problem idi. Qanun bu problemi qismən aradan qaldırır. Belə ki, Qanunun 9-cu maddəsi könüllü fəaliyyət münasibətlərini tənzimlənməsini müqavilə yolu ilə həyata keçirilməsini müəyyən edir. Qanunun 9cu maddəsinə görə, "*Könüllü fəaliyyətin iştirakçıları arasında münasibətlər tərəflər arasında yazılı formada bağlanan müqavilə ilə tənzimlənir".*
Müqavilədə aşağıdakıların olması zəruridir:

- müqavilə bağlayan tərəflər haqqında məlumatlar;
- tərəflərin hüquq və vəzifələri;
- görüləcək işlər və göstəriləcək xidmətlər;
- müqavilənin müddəti;
- tərəflərin məsuliyyəti;
- müqaviləyə xitam verilməsi qaydası.

Qanuna görə könüllü fəaliyyətin təşkilatçıları tərəfindən cəlb edilmiş könüllülərlə bağlanan müqavilədə bu Qanunun məqsədlərinə uyğun olaraq digər şərtlər də nəzərdə tutula bilər.
Müqavilədə Qanuna zidd olmayan digər müddəalar, o cümlədən könüllü fəaliyyəti həyata keçirərkən üçüncü şəxslərə vurulmuş zərərin ödənilməsi qaydası, müqaviləyə xitam verilməsi,müqavilənin müddəti, qüvvəyə minmə vaxtı və qaydaları və s. nəzərdə tutula bilər.
Bu layihə çərçivəsində könüllü fəaliyyətlə bağlı hazırlanmış müqavilə nümunəsi əlavələrdə verilmişdir.

## Haqqı ödənilməyən (könüllü) fəaliyyət haqqında müqavilə*

Bakı şəh.

### 1. Tərəflər haqqında məlumatlar

1.1. Bu müqavilə Könüllü fəaliyyətin təşkilatçısı səlahiyyətlərini həyata keçirən

______________________________________________

(təşkilatın adı)

Könüllü fəaliyyətin təşkilatçısı

______________________________________________

(vəzifəsinin adı)

______________________________________________ ilə

(adı, atasının adı və soyadı)

Könüllü ______________________________________________

(adı, atasının adı və soyadı)

______________________________________________ (vətəndaşlığı,

şəxsiyyətini təsdiq edən sənəd, onun nömrəsi,

______________________________________________

verildiyi tarix və onu verən orqanın adı )

______________________________________________

(təhsili, ixtisası, sənəti, peşəsi, bitirdiyi təhsil

______________________________________________

müəssisəsinin adı)

arasında "………………" "………..” …… il tarixində Azərbaycan Respublikasının Könüllü Fəaliyyət Haqqında Azərbaycan Respublikası Qanununa müvafiq olaraq bağlanmışdır. Müqavilə "………………" "………..” …… il tarixindən qüvvəyə minir.
1.2. Könüllü ______________________________________________

(iş yerinin və yerinə yetirəcəyi fəaliyyətin adı)

əvəzi ödənilməyən fəaliyyətə qəbul edilir.
1.3. Bu müqavilə bağlanan gündən yaranmış münasibətlər, tərəflərin hüquqları, vəzifələri və məsuliyyəti Könüllü fəaliyyət haqqında Qanunla müəyyən edilmiş qaydalarla və prinsiplərlə tənzimlənir.

## 2.Tərəflərin vəzifələri

2.1 Könüllü, təşkilatın maraqları naminə onun nizamnamə ilə nəzərdə tutulmuş məqsədlərinin həyata keçirilməsi ilə bağlı aşağıdakı öhdəlikləri öz üzərinə götürür. (konkret fəaliyyət növlərini sadalamaq)

___

a) ______________________________________________

b) ______________________________________________

c) Yuxarıda göstərilən fəaliyyət növləri ilə nəzərdə tutulmuş vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirmək.

d) Təşkilatın əmlakına və bu müqavilə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirlməsi üçün istifadə etdiyi avadanlıq və alətlərə qayğı ilə yanaşmaq

e) Təşkilatın məsul şəxsinin tələbi ilə öz fəaliyyətinin nəticələri haqqında hesabat vermək

f) Məxfi xarakter daşıyan məlumatları yaymamaq

g) Təşkilatın fəaliyyətini tənzimləyən daxili nizam-intizam qaydalarını pozmamaq

h) Təşkilatın xahişi ilə, müqavilədə nəzərdə tutulmuş fəaliyyət nəticələrinə nail olunması uçun zəruri məlumatları təqdim etmək.

2.2. Könüllünün fəaliyyətin təşkilatçısı:

- Könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb edilmiş şəxslərlə müqavilə bağlamaq;
- Könüllü üçün təhlükəsiz və səmərəli fəaliyyəti üçün zəruri şərait yaratmaq;
- Könüllünün fəaliyyət dairəsini və bu fəaliyyətin həyata keçirildiyi yeri dəqiq müəyyənləşdirmək;
- Könüllünün, bu müqavilə ilə nəzərdə tutulmuş vəzifələrin həyata keçirməsi prosesində yaranmış problemlərinin həll edilməsi üçün məsul şəxsi təyin etmək;
- Könüllünün bu muqavilə ilə nəzərdə tutulmuş fəaliyyəti ilə bağlı birbaşa xərcləri, təşkilatın məsul şəxsi ilə yazılı razılaşmaqla, ödəmək. Yazılı razılıq olmadan xərclərin ödənilməsinə yol verilmir;
- Könüllülərə onların hüquq və vəzifələrini izah etmək, onları təlimatlandırmaq;
- Könüllü fəaliyyətin həyata keçirilməsi haqqında informasiyanı açıqlamaq, könüllü fəaliyyətin nəticələri barədə məlumat vermək;
- Könüllünün tələbi ilə könüllü fəaliyyət haqqında müvafiq arayışlar vermək;
- Könüllüləri yerinə yetirəcəkləri işin həyat və sağlamlıq üçün təhlükəli olması barədə məlumatlandırmaq;
- Könüllünün həyat və sağlamlığını sığorta etmək;
- Könüllüləri həyat və sağlamlıq üçün təhlükəli işlərə göndərərkən onların texniki təhlükəsizliklə bağlı müvafiq təlim keçmələrini təmin etmək;
- Könüllü fəaliyyətin təşkili üçün tələb olunan hüquqi, təşkilati və texniki məsələləri həll etmək;
- Könüllülərə qarşı ayrı-seçkiliyə yol verməmək;

## 3. Tərəflərin Hüquqları

3.1. Könüllünün aşağıdakı hüquqları vardır.

- müqaviləyə uyğun olaraq həyat və sağlamlığının mühafizəsini təmin edən əmək şəraitinin yaradılmasını, zəruri hallarda isə əməyin mühafizəsinin normaları və qaydaları haqqında təlim keçirilməsini tələb etmək;

- könüllü fəaliyyətin şərtləri və xarakteri haqqında informasiya əldə etmək;
- könüllü fəaliyyət haqqında informasiya yaymaq;
- könüllü fəaliyyətin təşkilatçılarından görülən işlərin yeri, həcmi, xarakteri və vaxtı göstərilməklə, könüllü fəaliyyət haqqında yazılı arayış almaq;
- könüllü fəaliyyət könüllünün daimi yaşadığı yaşayış məntəqəsinin hüdudlarından kənarda həyata keçirildikdə gündəlik xərclərin ödənilməsini könüllü fəaliyyətin təşkilatçılarından tələb etmək;
- könüllü fəaliyyəti həyata keçirərkən həyatına və sağlamlığına dəymiş zərərin əvəzini könüllü fəaliyyətin təşkilatçılarından almaq;
- sığorta olunmaq;
- öz əmlakından istifadəyə görə kompensasiya almaq.

Könüllü həmçinin:

- Təşkilat tərəfindən həyata keçirilən tədbirlərdə iştirak etmək;
- Bu müqavilə ilə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirlməsi prosesinə ziyan vurmamaqla, öz ixtisasını artırmaq yaxud əlavə ixtisas almaq;
- Təşkilatın tarixi və fəaliyyəti haqqında məlumatları almaq;
- Öz fəaliyyəti haqqında təşkilatdan yazılı rəy (xasiyyətnamə) almaq

hüququna malikdir.

**3.2. Könüllü fəaliyyət təşkilatçısının hüquqları**

- Könüllü Fəaliyyət haqqında Qanunda nəzərdə tutulmuş qaydada şəxsləri könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb etmək;
- Könüllü Fəaliyyət haqqında Qanunla müəyyənləşdirilmiş qaydada və əsaslarla könüllülərlə bağlanmış müqaviləyə xitam vermək;
- Könüllülərdən müqavilədən irəli gələn öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini tələb etmək;
- Görülmüş işlər haqqında könüllülərdən məlumat və ya hesabat almaq;
- Könüllü fəaliyyət həyata keçirilərkən könüllü tərəfindən vurulmuş maddi ziyanın ödənilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tədbirlər görmək

Könüllü fəaliyyətin təşkilatçısı həmçinin Müqavilə ilə müəyyən edilmiş işlərin yerinə yetirilməsi üçün, könüllünün ixtisasına, peşəsinə, dair sənədləri, sağlamlıq vəziyyəti haqqında arayışı, digər şəxslərin tövsiyyələrini, tələb etmək hüququna malikdir.

**4.Müqavilənin müddəti**

4.1 a) Bu Müqavilə müddətsiz bağlanılır
b) Bu müqavilənin müddəti _________________201 tarixinə qədərdir.

**5.Müqaviləyə xitam verilməsi**

a) Müqaviləyə hər hansı bir tərəfin təşəbbüsü ilə, bir həftə əvvəlcədən məlumat verməklə, xitam verilə bilər

b) Mübahisəli məsələlər danışıqlar yolu ilə, bu mümkün olmadıqda AR Müvafiq Qanunvericilik aktlarına müvafiq olaraq həll edilir.

**6.Əlavə şərtlər**

Müqavilə iki nüxsədə tərtib edilir və hər iki nüxsə eyni hüquqi qüvvəyə malikdir.

**7.Tərəflərin imzaları**

Könüllü Fəaliyyətin təşkilatçısı: Könüllü:

____________________________ ____________________________

**(təşkilatın tam adı, ünvanı)** **(könüllünün A.S.A və ünvanı)**

**____________________________** **______________________________**

**İmza və möhür:___________** **İmza:____________________**

*** Bu müqavilə Könüllü Fəaliyyət Haqqında Azərbaycan Respublikası Qanununa əsasən hazırlanıb və nümunədir. Qanunun tələblərinə əməl etməklə başqa struktur və formada da müqavilə hazırlamaq olar.**